# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol



6

## Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə müttəfiqliyinin tarixi zirvəsi!



*Prezident İlham Əliyev: "Bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır"*

2


SƏS

№ 044 (7454)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

12 iyun 2026-cı il.

Qiyməti 1 manat


# Rusiya Ermənistanı "yavaş-yavaş" itirir



7

### Hazır qidaların demans təhlükəsi



7

### Uşaqları virtual təhlükədən necə qoruyaq?



8

### Vətəndaş əlillik dərəcəsi ilə bağlı hansı hüquqi yardımlardan istifadə edə bilər?



4

## Hikmət Hacıyev: "Birinci Qarabağ müharibəsindən bu yana 4009 Azərbaycan vətəndaşı itkindir"



2

## Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi



3

# Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə müttəfiqliyinin tarixi zirvəsi!

***Beş il öncə - 2021-ci ilin 15 iyununda iki qardaş ölkənin dövlət rəhbərləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada müttəfiqlik münasibətləri haqqında Bəyannaməyə imza atdılar. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir. Dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında müasir dövrümüzdə daha da möhkəmlənib. Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün artıq nümunədir.***



*Prezident İlham Əliyev: "Bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır"*

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi önəm vermişdir. "Bir millət, iki dövlət", - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə, uğurla davam etdirilir və müttəfiqlik səviyyəsinə yüksəldilib. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və dövlətlərarası münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq, Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi kimi səciyyələnir və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

## AZƏRBAYCANIN VƏ REGİONUN TƏHLÜKƏSİZLİYİNİN ZƏMANƏTİ

Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə dövlətlər arasında əlaqələri ən yüksək zirvəyə qaldıraraq, gələcək işbirliyinin təminatında mühüm sənəd kimi tarixdə yer aldı. Azad edilmiş Şuşa şəhərində imzalanan Birgə Bəyannamə dövlətlərarasında əməkdaşlıqda strateji əhəmiyyət kəsb edir. 1921-ci il tarixli Qars müqaviləsinə əsasən, Naxçıvanın təhlükəsizliyinin təminatçısı olan Türkiyə 100 ildən sonra imzalanan Şuşa Bəyannaməsi ilə bütövlükdə Azərbaycanın, ümumilikdə isə regionun təhlükəsizliyinin zəmanəti qismində çıxış edir. Şuşa Bəyannaməsi diplomatiya tariximizin ən mühüm sənədlərindən biri hesab olunur və Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır". Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı ifadələr də yer almışdı. Belə ki, sənəddə bir sıra məsələlərlə yanaşı, Zəngəzur dəhlizinin siyasi-iqtisadi əhəmiyyəti diqqətə çatdırılaraq, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulurdu. Bəyannamə iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırdı və qardaş dövlətlər dünyaya birlik mesajlarını vermiş oldular.

## TARİXİ QARDAŞLIQ VƏ BİRLİK

Şuşa Bəyannaməsi həmçinin hər iki ölkənin iqtisadiyyatında şaxələndirmənin sürətlənməsinə, ölkələrarası mal daşımalarında, logistika məsələlərində yeni, mütəərqqi mexanizmlərin işlənib hazırlanmasına, tətbiqinə, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasına, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına geniş imkanlar açmış oldu. Ötən dövrün mənzərəsinə nəzər saldıqda görürük ki, iki ölkə arasında siyasi, iqtisadi-ticari əlaqələr ən yüksək səviyyədədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə qardaş ölkələrin deyil, eləcə də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, TAP kimi birgə layihələr regional və beynəlxalq təhlükəsizlikdə, əməkdaşlıqda müstəsna rola malikdir. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələrdir və milli maraqlarının qorunmasında qətiyyətli mövqe nümayiş etdirirlər.

6 fevral 2023-cü ildə qardaş ölkədə baş verən dəhşətli zəlzələ zamanı Türkiyənin köməyinə catan ilk ölkənin Azərbaycan olması da bu münasibətlərin təzahürüdür. Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi. Ümumiyyətlə, həmin çətin günlərdə Azərbaycan xalqı bir ürək olaraq Türkiyə xalqına yardım etmək üçün səfərbər oldu. Azərbaycan Kahramanmaraşda "Azərbaycan məhəlləsi" layihəsini həyata keçirib. "Azərbaycan məhəlləsi" Kahramanmaraşda 320 hektarlıq ərazidə inşa edilib. Ərazidə 1323 mənzil, 799 qeyri-yaşayış obyekti olmaqla 2122 bina tikilib. Tikililər arasında məktəb, mədəniyyət mərkəzi, parklar və digər sosial obyektlər də yer alıb. Bütün bunlar Azərbaycan-Türkiyə birliyinə, həmrəyliyinə bariz nümunələrdir.

Əlbəttə ki, Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib. Qardaş ölkələr arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır. Türkiyə ilə Azərbaycan arasındakı mövcud münasibətlər regional və beynəlxalq sülhə, rifaha töhfə verir.

***Zümrüd BAYRAMOVA***

# Hikmət Hacıyev: "Birinci Qarabağ müharibəsindən bu yana 4009 Azərbaycan vətəndaşı itkindir"

***Birinci Qarabağ müharibəsindən 30 ildən artıq vaxt keçməsinə baxmayaraq, 4 009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş şəxs kimi qeydiyyatdadır. SİA xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial media hesabında yazıb. Onun sözlərinə görə, itkin düşmüş şəxslər məsələsi Ermənistan-Azərbaycan münaqişəsinin nəticəsində ən ağrılı humanitar problemlərdən biri olaraq qalır.***



"Birinci Qarabağ müharibəsindən otuz ildən çox vaxt keçməsinə baxmayaraq, 4 009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş kimi qeydiyyatda qalır. Minlərlə ailə qeyri-müəyyənlik içində yaşamağa davam edir, yaxınlarının taleyi və yerləşdiyi barədə məlumat almaq kimi fundamental hüquqdan məhrum edilir. Davam edən axtarış, qalıqların çıxarılması və identifikasiya səyləri nəticəsində 889 insan qalığı ekshumasiya edilmiş, 313 itkin düşmüş şəxs DNT və məhkəmə-tibbi ekspertiza yolu ilə müəyyən edilmiş və 226 nəfərin qalıqları layiqli dəfn üçün ailələrinə təhvil verilmişdir".

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın azad olunmuş ərazilərində 32 kütləvi məzarlığın aşkar edilməsi humanitar faciənin miqyasının əlavə sübutu olmaqla yanaşı, itkin düşmüşlərin taleyinin aydınlaşdırılması istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayır. "İtkin düşmüş şəxslər məsələsinin həlli yalnız humanitar öhdəlik deyil. Bu, ədalət, insan ləyaqəti, barışıq və davamlı sülh məsələsidir. Hər müəyyən edilmiş şəxs bir ailəni cavablara yaxınlaşdırır. Hər tapılan qalıq həqiqətin bərpasına və yaddaşın qorunmasına kömək edir".

# Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi






***İyunun 11-də Nəsimi rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi” mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***



Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri, Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov qeyd edib ki, tariximizin taleyüklü səhifələrindən biri olan Milli Qurtuluş Günü ölkəmizin gerçək müstəqilliyini və tənəzzüldən xilas olaraq tərəqqi mərhələsinə yüksəlməsini təmin edən tarixi dönüş nöqtəsi kimi yaddaşlara əbədi həkk olunub: “Sirr deyil ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş ölkəmiz ciddi daxili və xarici təhdidlərlə üzləşmişdi. Dərin iqtisadi və siyasi böhrandan əziyyət çəkən Azərbaycan Ermənistanın genişlənən hərbi təcavüzü fonunda regionda təcrid vəziyyətinə düşmüşdü. Belə bir mürəkkəb dönəmdə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı ağır sınaqlardan xilas etdi və gələcək inkişafın möhkəm təməllərini yaratdı”.

YAP Sədrinin müavini vurğulayıb ki, 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin əsası qoyuldu: “Ulu Öndərin zəngin dövlətçilik təcrübəsi və uzaqgörən siyasəti sayəsində ölkədə sabitlik bərpa olundu, ictimai-siyasi proseslər sağlam məcraya yönəldildi, qanunun aliliyi təmin edildi və dövrün çağırışlarına uyğun milli inkişaf strategiyası uğurla həyata keçirilməyə başlandı. 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etdi, ölkəmizin demokratiya və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətinə çevrilməsini şərtləndirdi”.

Tahir Budaqovun sözlərinə görə, 2003-cü ildə xalqımız Heydər Əliyev yoluna sədaqət nümayiş etdirərək cənab İlham Əliyevə yüksək etimad göstərdi: “Bu, Ümummilli Liderin müəyyənləşdirdiyi siyasətin alternativsizliyinə qətiyyətli inamın birmənalı ifadəsi idi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirdi. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı sürətli inkişaf yoluna çıxardı. İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən ölkəmiz şanlı Zəfər zirvəsinə yüksəldi”.

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndərin tükənməz dövlətçilik irsinin, o cümlədən Milli Qurtuluş məfkurəsinin yeni nəslə dolğun surətdə çatdırılmasında, Azərbaycan gəncliyinin milli maraqlara sadiq, yüksək vətəndaş məsuliyyətinə malik şəxsiyyətlər kimi yetişdirilməsində ali təhsil müəssisələrinin də üzərinə mühüm vəzifələr düşür: “Müasir dövrdə universitetlər yalnız peşəkar kadrlar hazırlayan elm və təhsil müəssisələri deyil, eyni zamanda, dövlətçilik irsinin, milli-mənəvi dəyərlərin, azərbaycançılıq ideologiyasının təbliğ olunduğu önəmli ictimai institutlardır. Bu xüsusda Azərbaycan Dillər Universitetinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Universitetdə gənclərin müasir biliklərə yiyələnməsi, xarici dilləri dərindən öyrənməsi, kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi ilə yanaşı, tarixi köklərə bağlı və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar kimi formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılır”.

Tahir Budaqov qeyd edib ki, müasir dövrdə gənclərin qarşısında duran əsas vəzifə yüksək bilik və bacarıqlara yiyələnmək, milli maraqları hər zaman üstün tutmaq və əzmkar fəaliyyəti ilə ölkəmizin gələcəyinə layiqli töhfə verməkdir: “Əminik ki, Milli Qurtuluşdan başlanan şanlı Zəfər yolu bundan sonra da xalqımıza tarixi nailiyyətlər qazandıracaqdır. Hər birinizi 15 İyun – Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, xalqımızın rifahı və ölkəmizin tərəqqisi naminə məqsədyönlü fəaliyyətinizdə uğurlar arzulayıram”.




Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında bildirib ki, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda vətəndaş müharibəsi təhlükəsinin qarşısını aldı. Onun sözlərinə görə, o vaxtkı vəziyyətdən xalqı xilas etməyi Heydər Əliyev kimi böyük şəxsiyyət bacara bilərdi: “Azərbaycanın müasir dövlətçilik tarixində 15 İyun - Milli Qurtuluş Günü xüsusi siyasi və tarixi əhəmiyyətə malikdir. Bu gün təkcə hakimiyyət dəyişikliyi və ya siyasi hadisə kimi deyil, Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxlaması, parçalanmaq təhlükəsindən xilas olması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından taleyüklü mərhələ kimi qiymətləndirilir. Məhz 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı dərin böhrandan çıxararaq sabitlik, inkişaf və dövlət quruculuğu mərhələsinə gətirib çıxardı”.

Kamal Abdulla qeyd edib ki, bu gün Azərbaycanın əldə etdiyi uğurların əsasında 1993-cü ildən başlanan dövlət quruculuğu siyasəti dayanır: “Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası nəticəsində ölkədə güclü dövlət institutları formalaşdı, sosial-iqtisadi inkişaf təmin edildi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə olundu. Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs müasir dövrün çağırışlarına uyğun şəkildə davam və inkişaf etdirilərək yeni mərhələyə yüksəldildi.

***Ardı Səh. 4***

# Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi



Əvvəli-Səh-3

Azərbaycanın iqtisadi, siyasi və hərbi gücünün artması nəticəsində ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, 2023-cü ildə ölkənin bütün ərazisində suverenliyin tam təmin olunması Ulu Öndərin əsasını qoyduğu dövlətçilik strategiyasının uğurlu nəticəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, bu Zəfər həm də ata vəsiyyətinin yerinə yetirilməsi, Azərbaycan xalqının tarixi ədalətinin bərpası idi".

Milli Qurtuluş Gününün milli birliyin təmin olunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığını söyləyən K.Abdulla deyib ki, məhz bu gün Azərbaycan xalqının öz taleyini müəyyənləşdirdiyi, dövlətçiliyin xilası naminə doğru siyasi seçim etdiyi tarixi dönüş nöqtəsidir: "Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində mövcudluğunu davam etdirən Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atır, regionun aparıcı güc mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir".

Kamal Abdulla Azərbaycan Dillər Universitetinin inkişafında da Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu deyərək ali məktəbin professor-müəllim heyəti və tələbələrinin hər zaman dövlətçiliyə sadiq qaldığını vurğulayıb.

Çıxış edən Azərbaycan Dillər Universitetinin professoru Fərman Zeynalov bildirib ki, xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Heydər Əliyev Azərbaycanı real təhlükələrdən qurtarmaqla yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi: "Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı".

Onun sözlərinə görə, Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını, tarixin ən çətin sınaqlarından uğurla çıxmasını təmin edən Ulu Öndər Heydər Əliyev, sözün əsl mənasında, xilaskar və qurucu Lider rolunu oynadı: "Mübaliğəsiz demək olar ki, müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Bu əsərin təməl daşının qoyulduğu gün




- 15 İyun tariximizin ən parlaq səhifələrindən biridir. Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis yetişdirməsidir. Ulu Öndərin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya siyasi arenasında müstəqil siyasət yürüdən ölkə kimi layiqli yer tutur, milli maraqlarımız qətiyyətlə tam şəkildə qorunur, - deyə F.Zeynalov vurğulayıb.

Azərbaycan Dillər Universitetinin 3-cü kurs tələbəsi Fəxriyyə Mirzəyeva çıxışında qeyd edib ki, Milli Qurtuluş Günü dövlətçilik tarixində dönüş nöqtəsi, Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi yolunda



mühüm hadisə kimi yaddaşlara həkk olunub. Onun sözlərinə görə, bu gün biz müstəqil, güclü və inkişaf edən Azərbaycanda yaşayırıqsa, bunun təməlində məhz Ulu Öndərimizin hakimiyyətə tarixi qayıdışı dayanır: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu inkişaf yolunu davam etdirir. Azərbaycan gəncliyi üçün bu gün geniş imkanlar yaradılıb. Təhsil, elm, innovasiya, beynəlxalq əməkdaşlıq və sahibkarlıq sahələrində gənclərə göstərilən diqqət gələcəyin savadlı, peşəkar və vətənpərvər nəslinin formalaşmasına xidmət edir".

O bildirib ki, gənclər yalnız savadlı mütəxəssis olmaqla kifayətlənməməli, həm də bilik və bacarıqlarımızı daim inkişaf etdirərək, Azərbaycanın gələcək uğurlarında fəal iştirak etməlidir. "Mənim üçün bu tədbir həm də xüsusi mənəvi əhəmiyyət daşıyır. Çünki Yeni Azərbaycan Partiyasının sıralarına yeni qoşulmağım və partiya vəsiqəsi almağım bir gənc olaraq məni qürurlandırır .Etimadı doğrultmaq, dövlətçilik dəyərlərinə sadiq qalmaq, ölkəmizin inkişafı naminə fəal olmaq və Ulu Öndər Heydər Əliyevin ideyalarına, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətə dəstək vermək hər birimiz üçün böyük şərəfdir".

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb. Sonda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunub.



## Vətəndaş əlillik dərəcəsi ilə bağlı hansı hüquqi yardımlardan istifadə edə bilər?

### *Hüquqşünas mühüm məqamlara aydınlıq gətirdi*

"Əlillik Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda nəzərdə tutulan insanın həyat fəaliyyətinin əsas kateqoriyaları və onların məhdudlaşma dərəcələri və "Əlilliyin müəyyən olunması meyarları"na Əlavə - "Orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddəti"nə əsasən müəyyən olunur". Bu sözləri S A -ya açıqlamasında hüquqşünas, Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov bildirib. Onun sözlərinə görə, Azərbaycan Respublikasında əlilliyi qiymətləndirmək məqsədilə tibbi-sosial ekspertiza Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi-sosial ekspert komissiyaları tərəfindən həyata keçirilir:

"Əlillik 1 il, 2 il, 5 il və müddətsiz müəyyən edilir.

Aşağıdakı hallarda əlillik müddətsiz müəyyən olunur

- "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin üçüncü hissəsinə əsasən həmin Qanunun 5-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən şəxslərin əlilliyi Çernobıl qəzası nəticəsində əmələ gəldikdə, əlillik müddətsiz müəyyən edilir.

- Müddət göstərilməklə müəyyən olunmuş orqanizmin funksiyalarının pozulması 31-60 faiz aralığında ardıcıl olaraq 15 il, 61-80 faiz aralığında ardıcıl olaraq 10 il və 81-100 faiz aralığında ardıcıl olaraq 4 il müddətində müəyyən olunduğu halda, eləcə də fərqli faiz aralıqları üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi" qaydasının 4.3-cü bəndi nəzərə alınmaqla 15 il əlillik müddəti olduqda, növbəti qiymətləndirmə zamanı əlillik müddətsiz müəyyən edilir.

- "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş yaşa görə əmək pensiyası (güzəştli şərtlərlə yaşa görə əmək pensiyası istisna olmaqla) və yaxud sosial müavinət almaq hüququ verən yaş həddinə çatan şəxslərə əlillik müddətsiz müəyyən edilir.

Şəxsin əlilliyi hansı səbəblərə əsasən müəyyən edilir:

- ümumi səbəblərdən:
- ümumi xəstəlik;
- istehsalat zədəsi;
- peşə xəstəliyi;
- çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar;
- hərbi xidmət dövrü ilə əlaqədar;
- hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar;
- terror hadisəsi ilə əlaqədar.
- xüsusi səbəblərdən:
- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar;
- 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar;
- Hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar;
- Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar.



Şəxs əlilliyin qiymətləndirilməsi barədə qərarın qəbul edildiyi tarixdən əlilliyin növbəti qiymətləndirilməsi tarixindən sonrakı ayın 1-dək əlilliyi olan şəxs hesab edilir.

Orqanizmin funksiyalarının pozulması faizləri:

Orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir.

İnsanın həyat fəaliyyəti kateqoriyalarının məhdudlaşması dərəcələri:

- xəstəlik, zədə və çatışmazlıqlardan irəli gələn, insanın həyat fəaliyyəti

kateqoriyalarının hər hansı birinin və ya bir neçəsinin III dərəcə məhdudlaşması halında – 81-100 faiz;

- xəstəlik, zədə və çatışmazlıqlardan irəli gələn, insanın həyat fəaliyyəti

kateqoriyalarının hər hansı birinin və ya bir neçəsinin II dərəcə məhdudlaşması halında – 61-80 faiz;

- xəstəlik, zədə və çatışmazlıqlardan irəli gələn, insanın həyat fəaliyyəti

kateqoriyalarının hər hansı birinin və ya bir neçəsinin I dərəcə məhdudlaşması halında – 31-60 faiz.

Agentliyin (Əlillik dərəcəsini təyin orqan) isə vətəndaşı əyani müayinəyə cəlb etməlidir. Agentliyin əlilliyin qiymətləndirilməsi barədə qərarlarından verilmiş şikayətlərə Nazirliyin Komissiyası 15 iş günü müddətində baxılmalıdır.

Həmin Komissiyanın qərarları sadə səs çoxluğu ilə qəbul edilir və həmin gün ərzində altsistemə daxil edilir. Əgər vətəndaş əyani müayinə edildikdən sonra əlillik dərəcəsindən razı olmadıqda bu zaman məhkəməyə müraciət etmək hüququ var".

***Günay Hacıyeva***

# Qurtuluş məfkurəsi: xilaskarlıq missiyasından Zəfər salnaməsinə







***İyunun 10-da Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Dövlət Akademik Musiqili Teatrının birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş məfkurəsi: xilaskarlıq missiyasından Zəfər salnaməsinə" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin hazırladığı videoçarx nümayiş olunub.***

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi müasir tariximizdə silinməz iz qoymuşdur: "Bilirsiniz ki, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımız tarixinin son dərəcədə taleyüklü bir dövrünü yaşayırdı. Günü-gündən dərinləşən ictimai-siyasi böhran, sosial-iqtisadi tənəzzül və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü fonunda dövlət müstəqilliyi ciddi təhlükə altında idi. Məhz belə bir mürəkkəb dönəmdə - 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə dövlətçilik tariximizdə yeni mərhələ başlandı. Xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirməklə Azərbaycanın müstəqilliyini möhkəmləndirərək hüquqi, dünyəvi və demokratik dövlət kimi möhkəm təməllər üzərində gələcəyə inamla addımlamasını təmin etdi. Digər tərəfdən, milli maraqlara əsaslanan balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın beynəlxalq münasibətlər sistemində təcrid vəziyyətindən qurtularaq etibarlı tərəfdaşa çevrilməsini şərtləndirdi".

YAP Sədrinin müavini vurğulayıb ki, Ulu Öndərimizin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri də siyasi varisliyin təmin edilməsidir: "Heydər Əliyev yolunu böyük əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində Azərbaycan böyük nailiyyətlərə imza ataraq öz qüdrətini daha da artırdı və xalqımızın uzun illər boyu arzuladığı möhtəşəm Zəfərə - tarixi ədalətin bərpasına nail oldu. Bu gün işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, müasir infrastruktur yaradılır və soydaşlarımızın doğma yurduna qayıdışı təmin olunur ki, bu da Heydər Əliyev ideyalarının təntənəsi və Prezident İlham Əliyevin qətiyyətli siyasətinin real nəticəsidir".

Tahir Budaqovun sözlərinə görə, Heydər Əliyev ideyalarının yaşadılmasında, Qurtuluş məfkurəsinin gənc nəslə aşılanmasında Ulu Öndərimizin qurucusu olduğu və bu gün Prezident İlham Əliyevin liderliyi ilə öz fəaliyyətini inamla davam etdirən Yeni Azərbaycan Partiyasının müstəsna rolu var: "Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi öz sıralarında 750 mindən çox vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyası müdrik dövlət xadiminin əbədiyaşar ideyalarına yüksək sədaqət nümayiş etdirərək ölkəmizin inkişafına mühüm töhfələr verir. Partiyamız dövlət başçısının müəyyənləşdirdiyi strateji hədəfləri bundan sonra da müvəffəqiyyətlə yerinə yetirmək əzmindədir".

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasını dövlət siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyənləşdirərək mədəniyyət və incəsənət sahəsinə daim yüksək diqqət göstərmişdir: "Onun təşəbbüsü ilə mədəniyyətimizin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, yaradıcı insanların əməyi hər zaman yüksək dəyərləndirilmişdir. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən tarixi irsimizin, o cümlədən mədəniyyətimizin qorunaraq yaşadılmasına xüsusi önəm verilir və bu istiqamətdə ardıcıl işlər görülür. Heç şübhəsiz, zəngin tarixi ənənələrimizin qorunmasında və Qurtuluş məfkurəsinin gənc nəslə çatdırılmasında mədəniyyət xadimlərinin də üzərinə böyük məsuliyyət düşür. Heydər Əliyev irsini yaşatmaq, Prezident İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri yerinə yetirmək və dövlətçiliyimizi daha da möhkəmləndirmək üçün milli maraqları daim qorumalı və dövlətə sədaqətlə xidmət etməliyik. Bu yolda hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayıram".

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov çıxışında bildirib ki, Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin ən şərəfli və əlamətdar səhifələrindən biridir. Onun sözlərinə görə, bu gün dövlətçiliyimizin xilası, xalqımızın parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən qurtulması, ölkəmizin sabitlik və inkişaf yoluna qədəm qoyması ilə bağlıdır: "1993-cü ildə yaranmış ağır ictimai-siyasi böhran Azərbaycan dövlətinin mövcudluğunu sual altına qoymuşdu. Məhz belə bir mürəkkəb və taleyüklü məqamda xalqın tələbi ilə Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Azərbaycan xalqı öz xilaskarına üz tutaraq ölkənin gələcəyini onun müdrik siyasi təcrübəsinə etibar etdi. Əgər Heydər Əliyevin siyasi qətiyyəti, dövlətçilik təfəkkürü və xalqına sonsuz sədaqəti olmasaydı, müstəqil Azərbaycan dövlətinin gələcək taleyi ciddi təhlükə altında qala bilərdi. Buna görə də Milli Qurtuluş Günü yalnız tarixi hadisə deyil, həm də Azərbaycan dövlətçiliyinin xilası və xalqımızın gələcəyə inamının təntənəsidir".

V.Zeynalov qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf edir, beynəlxalq nüfuzu artır, iqtisadi qüdrəti güclənir və milli maraqlarımız qətiyyətlə müdafiə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanaraq torpaqlarımızı işğaldan azad etdi. Bu şanlı qələbə Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsi, Azərbaycan xalqının milli birliyinin və dövlətimizin gücünün bariz nümunəsi oldu. 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində dövlət suverenliyi tam təmin edildi. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü və suveren hüquqlarını tam bərpa etdi. Bu tarixi nailiyyətlər Prezident İlham Əliyevin qətiyyətli siyasətinin və xalq-iqtidar birliyinin nəticəsidir".

Natiq vurğulayıb ki, bu gün Azərbaycan regionun lider dövləti kimi mühüm beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Ölkəmiz siyasi sabitliyi, iqtisadi inkişafı, sosial rifahı və milli həmrəyliyi ilə seçilir. Bütün bunların əsasında isə 15 İyun - Milli Qurtuluş Günündə əsası qoyulmuş möhkəm dövlətçilik təməlləri dayanır. "Milli Qurtuluş Günü hər birimiz üçün Vətənə sədaqət, dövlətçiliyə bağlılıq və milli birlik rəmzidir. Bu əlamətdar gün bizə bir daha xatırladır ki, müstəqilliyin qorunması və dövlətçiliyimizin daha da gücləndirilməsi hər bir vətəndaşın müqəddəs borcudur",- deyə V.Zeynalov əlavə edib.

Çıxış edən Azərbaycan Dövlət Akademik Musiqili Teatrın rəhbəri Aqil Bəhramlı bildirib ki, tariximizdə elə məqamlar var ki, onlar yalnız bir günün və ya bir hadisənin deyil, bütöv bir xalqın taleyinin dəyişdiyi dönüş nöqtələri kimi yadda qalır: "Milli Qurtuluş Günü də məhz belə tarixlərdəndir. Bu gün müstəqil Azərbaycanın qorunub saxlanılması, dövlətçiliyimizin möhkəmləndirilməsi və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi ilə sıx bağlıdır. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərpasına, dövlət institutlarının möhkəmləndirilməsinə və milli həmrəyliyin təmin edilməsinə şərait yaratdı. Azərbaycanın müstəqilliyinin qorunması və dövlətçiliyimizin gələcək inkişafı üçün möhkəm təməllər məhz həmin dövrdə formalaşdırıldı".



"Ulu Öndərin tarixi qayıdışından sonra ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. Dövlət idarəetmə sistemi təkmilləşdirildi, demokratik təsisatların inkişafı üçün şərait yaradıldı. 1995-ci ildə qəbul edilən Konstitusiya isə müasir Azərbaycan dövlətinin hüquqi əsaslarını müəyyənləşdirərək gələcək inkişafın yol xəritəsinə çevrildi. Eyni zamanda, ölkədə ictimai-siyasi sabitlik təmin edildi, daxili qarşıdurmaların qarşısı alındı və müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bütün bunlar Azərbaycanın gələcək uğurlarının əsasını təşkil etdi" ,- deyə A.Bəhramlı əlavə edib.

Natiq qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mühüm nailiyyətlər əldə edib: "Xüsusilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması xalqımızın çoxəsrlik dövlətçilik tarixində ən şərəfli səhifələrdən biridir. Milli Qurtuluş Gününün əhəmiyyəti həm də ondan ibarətdir ki, bu tarix gənc nəslə dövlət müstəqilliyinin necə böyük dəyər olduğunu xatırladır. Gənclərimiz xalqımızın keçdiyi mürəkkəb və şərəfli yolu öyrənərək dövlətçilik ənənələrinə sadiqlik, vətənpərvərlik və milli birlik kimi dəyərləri daha dərindən mənimsəyirlər".

YAP Veteranlar Şurasının üzvü, Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında bildirib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 İyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik olan bir gündür: "Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa-dayaq olan Heydər Əliyevdir. 1993-cü il iyunun 15-də siyasi rəhbərliyə qayıdan Ulu Öndərin gərgin əməyi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində qısa zaman kəsiyində dövlət müstəqilliyimiz dönməz xarakter aldı, hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi sabitlik, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu".

V.Novruzov qeyd edib ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın yeni neft strategiyası formalaşdırılıb və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə xarici investisiyaların ölkəmizə axını üçün möhkəm zəmin yaradılıb. V.Novruzovun sözlərinə görə, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir.

YAP Veteranlar Şurasının üzvü Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Novruz Quliyev də çıxışında Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, Heydər Əliyev SSRİ dövründə həm Azərbaycana rəhbərlik edərkən, həm də Moskvada yüksək vəzifədə çalışarkən daim xalqımızın rifahı, respublikamızın inkişafı üçün böyük işlər görüb.

N.Quliyev Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə xalqımızı bir çox bəlalardan qurtarmaqla bərabər, Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açdığını bildirib. O deyib ki, bu qayıdış ölkədə sabitliyin bərqərar olması və iqtisadi-siyasi inkişafın təmin edilməsi baxımından əhəmiyyətli dönüş nöqtəsi kimi yadda qalıb: "Heydər Əliyevin liderliyi ilə Azərbaycan müstəqilliyini möhkəmləndirib, dövlət institutlarını gücləndirib və beynəlxalq aləmdə nüfuzunu artırıb".

Natiq diqqətə çatdırıb ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan həm daxili, həm də xarici siyasətdə mühüm nailiyyətlər əldə edib. Onun sözlərinə görə, Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı zirvələrə yüksəldib. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonra 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunub.





*İyunun 9-da Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr edilmiş "Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol" mövzusunda tədbir keçirilib.*

# Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol






Əvvəlcə nazirliyin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətinə toxunaraq qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi müstəqillik yolunda ciddi dönüş yaratdı.

Nazir qeyd edib ki, dahi rəhbər ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşırdı: "O, respublikamız üçün aktual olan ekoloji problemlərin həll edilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə rəhbərlik edib. Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli dövlət xadimi Heydər Əliyev təbii sərvətlərin qorunmasına, yaşıllaşdırma tədbirlərinin miqyasının artırılmasına xüsusi önəm verirdi. Ulu Öndər Heydər Əliyevin iradəsi ilə 1969-1982-ci illərdə ekologiya, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair çox mühüm 8 qanun və 32 qərar qəbul olunub. Bəsitçay, Qarayazı, Ağgöl, Hirkan, Abşeron, İsmayıllı və Şirvan Dövlət Təbiət qoruqlarının yaradılması Ulu Öndərin 1969-1982-ci illərdə ölkəyə başçılıq etdiyi dövrə təsadüf edir. Eləcə də Zuvand, Daşaltı, Ordubad, Qubadlı, İsmayıllı və Kiçik Qızılağac Dövlət Təbiət yasaqlıqları da həmin dövrdə məhz Onun diqqət və qayğısı ilə yaradılıb. Ümummilli Lider Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Respublikasında flora və faunanın, təbiət abidələrimizin, nadir heyvanlar aləminin qorunması, mühafizə edilməsi istiqamətində konkret dövlət siyasətini müəyyən edib".

Rəşad İsmayılov deyib ki, Azərbaycan müstəqillik qazanandan sonra da məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə yeni ekoloji siyasət formalaşıb, Bakı və Abşeronun yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpasına daha böyük əzmkarlıqla başlanılıb. "Ulu Öndərin sədrliyi ilə yaranmış, hazırda isə Onun siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən layiqli varisi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında inkişaf edən və ölkədə ən geniş sosial bazaya malik olan siyasi partiya - Yeni Azərbaycan Partiyasına cəmiyyətdə böyük rəğbət formalaşıb. Nazirliyin bütün tabeli qurumlarında ümumilikdə 5 minə yaxın Yeni Azərbaycan Partiyası üzvünü birləşdirən partiya təşkilatlarının sıraları genişlənir və keyfiyyət cəhətdən təşkilatlanmaqda davam edir", - deyən natiq əlavə edib ki, Yeni Azərbaycan Partiyasının üzvləri əmək fəaliyyətində fərqlənən əməkdaşlardır. Onun sözlərinə görə, son illərdə nazirliyin əməkdaşları, xüsusilə gənclər Yeni Azərbaycan Partiyası sıralarına üzv olmaq üçün fəal təşəbbüs göstərirlər.

Nazir onu da qeyd edib ki, ətraf mühitin mühafizəsi sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyası arasında sıx əməkdaşlıq edilir: "Belə ki, 2019-cu ilin 5 iyul tarixində ətraf mühitin mühafizəsi və ekoloji layihələrin həyata keçirilməsi istiqamətində birgə əməkdaşlıq məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Yeni Azərbaycan Partiyası arasında birgə fəaliyyət proqramı imzalanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, ətraf mühitin mühafizəsi sahəsində ideoloji işin təşkilində, dövlət siyasətinin təbliğində, dövlətə və hakimiyyətə etimadın gücləndirilməsində Yeni Azərbaycan Partiyası üzvlüyünü daşıyan nazirlik əməkdaşlarının məsuliyyəti daha böyükdür. Nazirlikdə çalışan Yeni Azərbaycan Partiyası üzvləri xüsusi fəallıq nümayiş etdirirlər və ölkədə həyata keçirilən çoxşaxəli dövlət siyasətinin əsas təbliğatçıları kimi çıxış edirlər".

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 15 İyun – Milli Qurtuluş Gününün müasir dövlətçilik tariximizin ən şanlı səhifələrindən biri olduğunu qeyd edib: "Azərbaycan dövlətinin məhv olmaq təhlükəsindən xilası, müstəqilliyimizin dönməzliyinin, şərəfli Zəfər yolumuzun başlanğıcı kimi tarixə düşən bu gün xalq-lider birliyinin təntənəsini əks etdirməklə həyatımızda yeni bir dövrün əsasını qoymuşdur. Hər birinizə məlumdur ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan olduqca mürəkkəb və təhlükəli vəziyyətlə üz-üzə qalmışdı. Dövlət idarəçiliyində xaos hökm sürür, ölkədə vətəndaş qarşıdurması, parçalanma meyilləri güclənir və bütün bu proseslər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, beynəlxalq münasibətlər sistemində hökm sürən böhran, günü-gündən dərinləşən iqtisadi tənəzzül fonunda baş verirdi. Belə bir ağır dönəmdə xalqımız çıxış yolunu zəngin dövlətçilik təcrübəsinə malik dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməkdə gördü".

YAP Sədrinin müavini vurğulayıb ki, ümumxalq etimadının təzahürü kimi 91 nəfər ziyalının müraciəti əsasında 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya Sədr seçilməsi müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu: "Azərbaycanın xilası naminə xalq Ulu Öndərə üz tutdu və respublikaya rəhbərlik etməsi barədə qətiyyətli çağırış etdi. Heydər Əliyev öz həyatını belə riskə ataraq, böyük fədakarlıq və vətənpərvərlik nümunəsi ortaya qoyaraq taleyüklü tarixi missiyanı, olduqca mürəkkəb siyasi məsuliyyəti üzərinə götürdü. Beləliklə, 33 il bundan əvvəl - 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Məclisinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü kimi həkk olundu, Onun ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər sosial-iqtisadi yüksəliş, mədəni intibah və bütövlükdə müstəqil dövlət quruculuğu dövrü kimi yaddaşlara yazıldı".

Tahir Budaqov bildirib ki, Ümummilli Liderin xalqımız qarşısında ən önəmli xidmətlərindən biri də siyasi varisliyin təmin olunmasıdır: "Bu uzaqgörən siyasət nəticəsində Azərbaycanın inkişafı davamlı xarakter almış və dövlətçilik ənənələri daha da möhkəmlənmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artırmış, regionun aparıcı dövlətinə çevrilərək beynəlxalq münasibətlər sistemində mövqelərini daha da möhkəmləndirmişdir. Bütün bunlar isə Azərbaycanın milli gücünün artmasını, müasir dövlətçilik tariximizin ən böyük nailiyyətlərinə və şanlı Zəfərə imza atmasını şərtləndirmişdir. Bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın qüdrətinin və gələcəyə aydın strateji baxışının parlaq nümunəsidir. "Yaşıl enerji zonası" elan olunmuş Qarabağ və Şərqi Zəngəzurda ən müasir infrastruktur yaradılır, yaşayış məntəqələri, sosial obyektlər və istehsal müəssisələri son standartlara uyğun qurulur. Azərbaycanın qədim memarlıq ənənələri ilə müasir şəhərsalma konsepsiyalarının vəhdəti əsasında görülən işlər dayanıqlı məskunlaşmaya xidmət göstərir və bütün bu proseslər ekoloji tarazlığın qorunması prioriteti gözlənilməklə baş verir. Bu gün Azərbaycan beynəlxalq miqyasda ətraf mühitin mühafizəsində, iqlim dəyişikliklərinə qarşı mübarizədə və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində fəal rol oynayan qabaqcıl ölkələrdəndir. Ekoloji təhlükəsizliyin təmin olunması, təbii ehtiyatlardan səmərəli istifadə və yaşıl inkişafın təşviqi dövlət siyasətinin əsas prinsipi kimi xüsusi diqqət mərkəzində saxlanılır".

YAP Sədrinin müavini əlavə edib ki, Ümummilli Liderimizin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı gündən daim milli maraqların müdafiəsini, dövlət müstəqilliyinin möhkəmləndirilməsini, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunmasını öz fəaliyyətinin əsas istiqamətləri kimi müəyyən etmişdir: "Bu gün partiyamız cəmiyyətin müxtəlif təbəqələrini vahid məqsəd ətrafında birləşdirərək ölkəmizin tərəqqisinə öz töhfəsini verir. Şübhə yoxdur ki, Heydər Əliyev yoluna, Qurtuluş məfkurəsinə sədaqət nümayiş etdirən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin liderliyi ilə bundan sonra da məqsədyönlü fəaliyyətini inamla davam etdirərək xalqımıza yeni uğurlar qazandıracaqdır. Hər birinizi qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı və şərəfli fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayıram".

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin Hüquqi təminat, insan resursları və sənədlərlə iş şöbəsinin aparıcı məsləhətçi - hüquqşünası Azad Əliyev isə çıxışında bildirib ki, xalqa və dövlətə xidmət Ulu Öndərin qurucusu olduğu, hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyasının fəaliyyətində xüsusi yer tutur: "Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin hər bir Azərbaycan vətəndaşı tərəfindən düzgün və dərindən dərk edilməsi zərurətə çevrilib. Bununla əlaqədar ideoloji işin gücləndirilməsi və səmərəliliyinin artırılması son dərəcə böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə bizim - Yeni Azərbaycan Partiyasının üzvlərinin üzərinə böyük məsuliyyət düşür".

Çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin İnformasiya təminatı sektorunun məsləhətçisi Nərmin İsgəndərli qeyd edib ki, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində, ətraf mühitin mühafizəsi sahəsində ideoloji işin təşkilində, dövlət siyasətinin təbliğində Yeni Azərbaycan Partiyasının üzvü olan nazirlik əməkdaşları aktiv iştirak edirlər: "Mən də bu proseslərdə daha fəal olmaq məqsədilə xalqımızın ən çox inandığı siyasi birliyə - Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmağa qərar vermişəm. Ulu Öndərimizin yaratdığı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafına mühüm töhfələr verən Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyuram". Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb. Sonda xatirə şəkli çəkdirilib.



**Ultra emal olunmuş qidalar üzərində aparılan yeni tədqiqatlar çipslərin, peçenyelərin, hazır yeməklərin, şəkərli içkilərin və emal olunmuş ətlərin beyin sağlamlığına potensial təsirlərini yenidən diqqət mərkəzinə gətirib. Harvard tədqiqatına görə, bu məhsulları ən çox istehlak edənlərdə demensiya riski 58 faiz daha yüksəkdir.**

# Hazır qidaların demans təhlükəsi

ARAŞDIRMA

Harvard Universitetinin apardığı bir araşdırmaya görə, tez-tez çips, peçenye, hazır yeməklər, şəkərli içkilər, səhər yeməyi kimi məşhur olan hazır qutu məhsulları və emal olunmuş ət məhsulları istehlak edən insanlarda demensiya riski əhəmiyyətli dərəcədə artır. Tədqiqat göstərib ki, ən çox ultra emal olunmuş qidalar istehlak edən insanlarda demensiya inkişaf riski 58 faiz daha yüksəkdir. Alimlər vurğulayıblar ki, bu nəticə birbaşa "bu qidalar demensiyaya səbəb olur" demək deyil, əksinə, bu əlaqə güclü və bioloji cəhətdən mümkün görünür.

Tədqiqat təxminən 5000 amerikalı üzərində 10 il ərzində aparılıb. İştirakçıların qidalanma vərdişləri onların koqnitiv sağlamlığı ilə müqayisə edilib. Nəticələr göstərib ki, ən çox ultra emal olunmuş qidalar istehlak edənlərdə təkcə demensiya deyil, həm də demensiyanın xəbərçisi hesab edilən yüngül koqnitiv pozğunluq riski daha yüksəkdir.

Tədqiqat göstərib ki, ən çox ultra emal olunmuş qidalar istehlak edən insanlarda yüngül koqnitiv pozğunluq riski 46 faiz daha yüksəkdir. Yüngül koqnitiv pozğunluq unutqanlıq, diqqəti cəmləməkdə çətinlik və zehni fəaliyyətin azalması kimi simptomlarla özünü göstərə bilər. Bu, həmişə demensiyaya çevrilməsə də, vacib bir xəbərdarlıq əlaməti hesab olunur.

Tədqiqat nəticəsində emal olunmuş ətlərin demans riski ilə ən çox əlaqəli məhsul qrupu olduğu müəyyən edilib. Bekon, dilimlənmiş vetçina, sosis və kolbasa kimi emal olunmuş ət məhsulları idrak zəifləməsinə ən çox töhfə verən ultra emal olunmuş qidalar arasında müəyyən edilib.

Ultra emal olunmuş qidalar yalnız emal olunmuş ətlərlə məhdudlaşmır. Kartof fri, peçenye, hazır desertlər, alkoqolsuz içkilər, qablaşdırılmış qəlyanaltılar da bu kateqoriyaya daxildir. Bu məhsullar adətən yüksək səviyyədə duz, şəkər, yağ, qatqılar və süni şəkildə istifadə yararlılığı uzadılan maddələr ehtiva edir.

Tədqiqatda daha çox təbii və daha az emal olunmuş qidalar istehlak edən şəxslər arasında daha diqqətəlayiq bir tapıntı ortaya çıxdı. Daha çox meyvə, tərəvəz, dənli bitkilər və emal olunmamış ət istehlak edənlərdə demensiya riski 41% daha aşağı idi. Harvard professoru Sindi Leunq sağlam qidalanmanın faydalarının yalnız çəki nəzarəti ilə məhdudlaşmadığını bildirib. Leunqa görə, araşdırma göstərir ki, sağlam və təbii qidalara müraciət sonrakı həyatda zehni sağlamlığın qorunması üçün də vacib ola bilər.

Tədqiqatçılar xüsusilə qeyd edirlər ki, tədqiqat ultra emal olunmuş qidaların birbaşa demensiyaya səbəb olduğunu sübut etməyib. Lakin, mövcud tapıntılar bu qidaların piylənmə, 2-ci tip diabet, ürək-damar xəstəlikləri və iltihab vasitəsilə beyin sağlamlığına təsir göstərə biləcəyinə dair elmi mənzərə ilə uyğun gəlir.

Mütəxəssislərin fikrincə, ultra emal olunmuş qidalardakı bəzi əlavələr də riskin bir hissəsidir. Emulqatorların, konservantların və oxşar komponentlərin bədəndə iltihabı artıra biləcəyi və bunun demansla əlaqəli mexanizmlərdən biri ola biləcəyi bildirilir. Dərc olunmuş digər tədqiqatlar ultra emal olunmuş qidaların yalnız praktik və ya dadlı olmadığına diqqət çəkir, çünki onlar beynin mükafatlandırma sistemini hədəf almaq üçün xüsusi tərkiblə hazırlana bilər. Sürətli sorulma ilə karbohidratların yüksək yağlarla birləşməsi bir çox qablaşdırılmış qidalarda asılılıq hissini artıra bilər.

Miçiqan Universitetindən professor Eşli Gearhardt vurğulayır ki, sürətli karbohidratlar və yüksək yağ tərkibinin kombinasiyası təbii qidalarda bu formada deyil və təbii qidalar asılılıq yaratmır.

Mütəxəssislər iddia edirlər ki, ultra emal olunmuş qida problemi yalnız fərdi seçim məsələsi kimi qəbul edilməməlidir.

Tədqiqatçılara görə, aqressiv marketinq, böyük porsiyalar, diqqət çəkən qablaşdırma və "daha yüngül qida" kimi təsəvvür yaradan məhsul strategiyaları istehlakçıların sağlam seçim etməsini çətinləşdirir. Tədqiqatda qeyd olunur ki, bəzi böyük tütün şirkətləri keçmişdə ultra emal olunmuş qida sektoruna investisiya qoyublar və siqaret marketinqində istifadə edilənlərə bənzər metodlar qida məhsullarında da müşahidə olunur. Tədqiqatçılar iddia edirlər ki, dad dizaynı, az yağlı məhsulların populyarlaşması və potensial asılılıq yaradan formulalar ictimai sağlamlıq baxımından daha ciddi qəbul edilməlidir.

*Lalə Mehralı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiya Ermənistanı "yavaş-yavaş" itirir

**Ermənistanda keçirilən son parlament seçkiləri ölkənin xarici siyasət istiqaməti ilə bağlı mühüm mesaj verdi. Baş nazir Nikol Paşinyan rəhbərlik etdiyi hakim Vətəndaş Müqaviləsi Partiyası ilə yenidən qələbə qazanaraq parlamentdə çoxluğu qoruyub saxladı. Nəticələr Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsinin Rusiyadan asılılığın azaldılması və Avropa ilə inteqrasiyanın dərinləşdirilməsi xəttinə dəstək verdiyini göstərir. Ermənistanın xarici siyasətində dönüşün əsas səbəblərindən biri 2023-cü ildə baş vermiş hadisələr və Azərbaycanın Qarabağ üzərində tam nəzarəti bərpa etməsindən sonra yaranan yeni geosiyasi vəziyyətdir.**



## Seçkilər Moskva-İrəvan izdivacına birdəfəlik son qoydu

RAKURS

İrəvanda geniş yayılmış fikrə görə, Ermənistanın ənənəvi təhlükəsizlik müttəfiqi hesab edilən Rusiya böhran dövründə gözlənilən dəstəyi vermədi. Bu amil Ermənistan cəmiyyətində Moskvanın etibarlı tərəfdaş olub-olmaması ilə bağlı ciddi suallar yaradıb. Məhz bu fonda Paşinyan hökuməti son illərdə "strateji diversifikasiya" siyasətini ön plana çıxararaq Qərblə əlaqələri genişləndirməyə başlayıb. Avropa İttifaqı ilə siyasi dialoq intensivləşib, iqtisadi və institusional əməkdaşlıq proqramları genişlənib.

Son seçkilərdən sonra Ermənistanın Avropa ilə inteqrasiyanı daha sürətlə davam etdirəcəyi gözlənilir. Ermənistan parlamenti artıq Avropa İttifaqına üzvlük prosesinin başlanmasına dair siyasi xarakterli qanun qəbul edib. Bu addım rəsmi üzvlük müraciəti olmasa da, ölkənin strateji niyyətini nümayiş etdirir. Avropa İttifaqı da Ermənistanla əməkdaşlığı gücləndirməyə çalışır. Tərəflər arasında qüvvədə olan Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişi siyasi islahatlar, iqtisadi modernləşmə, hüququn aliliyi və təhlükəsizlik sahələrində əməkdaşlıq üçün əsas çərçivə rolunu oynayır. Seçkiqabağı dövrdə Brüssel Paşinyan hökumətinə açıq dəstək nümayiş etdirərək Ermənistanın üzləşdiyi iqtisadi təzyiqlərin yumşaldılması üçün əlavə yardım paketləri üzərində işlədiyini açıqlamışdı.

Ermənistanın Qərbə yaxınlaşması Rusiyada narahatlıqla qarşılanır. Moskva son illərdə İrəvanın Avropa istiqamətində atdığı addımları tənqid edib və Ermənistanın ənənəvi təhlükəsizlik sistemindən uzaqlaşmasının risklər yaradacağını bildirib. Rusiya rəsmiləri və Kremlin yaxın media qurumları seçkilər ərəfəsində Ermənistanın qərbyönlü kursuna qarşı sərt bəyanatlar səsləndiriblər.

Bununla belə, Ermənistan rəhbərliyi Rusiyadan tam uzaqlaşmaq niyyətində olmadığını bildirir. Paşinyan hökuməti bir tərəfdən Avropa ilə münasibətləri genişləndirir, digər tərəfdən isə Rusiya ilə iqtisadi və enerji sahələrində əməkdaşlığı qorumağa çalışır. Çünki Ermənistan iqtisadiyyatı və enerji infrastrukturu hələ də müəyyən dərəcədə Rusiyadan asılı olaraq qalır.

AB Paşinyana vəd etmişdi ki

Baş nazir Nikol Paşinyan Ermənistandan gələn kənd təsərrüfatı məhsullarının Avropa Birliyi ölkələrinə rüsumsuz ixrac ediləcəyinə dair siyasi razılaşma elan edib. "Bu, yaxın gələcəkdə reallığa çevriləcək", - deyə o, Aİ ilə razılaşmanın həyata keçirilməsi üçün müddət göstərmədən bildirib. Paşinyanın sözlərinə görə, Avropa bazarına daxil olmaq üçün məhsulun keyfiyyətinin yaxşılaşdırılması, qablaşdırmanın təkmilləşdirilməsi və Aİ standartlarına uyğunluq tələb olunacaq. O, həmçinin məhsulların çeşidlənməsi üçün kənd təsərrüfatı logistika mərkəzlərinin yaradılması planlarını açıqladı. Belə mərkəzlərin yaradılması ideyası əvvəllər mövsümdənkənar saxlama və ixrac üçün ölkə daxilində yerləşdirilməsini müdafiə edən müxalifət bloku "Güclü Ermənistan" tərəfindən irəli sürülmüşdü.

Baş nazir həmçinin Ermənistan gül istehsalçılarına Hollandiya gül bazarına çıxış imkanı yaratmaq planlarını açıqladı və bunun qlobal gül bazarına effektiv şəkildə çıxış açdığını qeyd etdi. "Rosselxoznadzor" (Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmət) 22 mayda Ermənistandan gül idxalına müvəqqəti məhdudiyyətlər qoyub. Paşinyan rusiyalı tərəfdaşları ilə mübahisəni həll edəcəyini və məsələləri işlək şəkildə həll etməyə çalışacağını bildirib. Avropa İttifaqı həmçinin böhranın öhdəsindən gəlmək üçün Ermənistana 50 milyon avro ayıracağına söz verib. Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen 11.000 erməni çiçəyinin ilk partiyasının artıq Litvaya göndərildiyini açıqlayıb.

*V.VƏLİLİ*

SƏS
12 iyun
2026-cı il

# Uşaqları virtual təhlükədən necə qoruyaq?



***İnternet artıq uşaqların həyatının ayrılmaz hissəsidir. Təhsil, əyləncə, ünsiyyət və yaradıcılıq üçün böyük imkanlar yaratsa da, eyni zamanda yeni təhlükələr də meydana çıxarıb. Dünyada aparılan araşdırmalar göstərir ki, uşaqların onlayn təhlükəsizliyi valideynlərin, məktəblərin, dövlət qurumlarının və texnologiya şirkətlərinin qarşısında duran ən vacib məsələlərdən biridir. Dünyada uşaqlar hansı virtual təhlükələrlə üzləşirlər? SİA mövzu ilə bağlı araşdırma edib.***

Mütəxəssislər virtual riskləri bir neçə əsas qrupa bölürlər:

### Kiberzorakılıq (Cyberbullying)

Uşağın sosial şəbəkələrdə, oyun platformalarında və ya mesajlaşma proqramlarında təhqir olunması, lağa qoyulması və ya təzyiqə məruz qalmasıdır. DQ Institute-un araşdırmasına görə, sorğuda iştirak edən uşaqların 45%-i kiberzorakılıqla qarşılaşıb. BMT-nin son hesabatlarında da kiberzorakılıq uşaqlar üçün ən sürətlə artan rəqəmsal təhlükələrdən biri kimi göstərilir.

### Naməlum şəxslərlə ünsiyyət

Bir çox hallarda cinayətkarlar özlərini yaşıd kimi təqdim edərək uşaqlarla əlaqə qururlar.

UNICEF-in beynəlxalq sorğusuna əsasən, gənclərin:

* 69%-i uşaqların internetdə yad adamlarla danışmasını risk hesab edir;
* 71%-i onlayn tanışlarla real görüşməyi təhlükəli sayır;
* 83%-i isə onlayn cinsi təcavüz və təqib riskindən narahatdır.

### Zərərli məzmun

Buraya zorakılıq, pornoqrafiya, qumar, narkotiklərin təbliği və ekstremist məzmun daxildir. UNICEF bildirir ki, rəqəmsal platformalar uşaqların zərərli və yaşlarına uyğun olmayan məzmunlara çıxışını asanlaşdırır.

Dezinformasiya və saxta xəbərlər

Sosial şəbəkələrdə yayılan yanlış məlumatlar uşaqların dünyagörüşünə və qərarvermə qabiliyyətinə ciddi təsir göstərə bilir. UNICEF-in hesabatına görə, uşaqların tənqidi düşünmə bacarığı tam formalaşmadığı üçün onlar dezinformasiyaya daha həssas qrup hesab olunurlar.

### Azərbaycan və dünya: vəziyyət necədir?

Azərbaycanda da smartfon və internetdən istifadə yaşı getdikcə azalır. Uşaqlar sosial şəbəkələrə, onlayn oyunlara və video platformalarına erkən yaşlardan qoşulurlar. Lakin inkişaf etmiş ölkələrdə son illərdə diqqət təkcə ekran vaxtına deyil, "rəqəmsal savadlılığa" yönəlib.

**Məsələn:**

### Finlandiya

Məktəblərdə uşaqlara:

* saxta xəbərləri tanımaq,
* şəxsi məlumatları qorumaq,
* internet fırıldaqlarını müəyyən etmək öyrədilir.

### Böyük Britaniya

Bir çox məktəbdə "online safety" ayrıca tədris mövzusudur.

### Avstraliya

Sosial media platformalarının uşaqların təhlükəsizliyinə görə hüquqi məsuliyyətinin artırılması istiqamətində ciddi addımlar atılır.

### ABŞ

Valideyn nəzarəti proqramlarından istifadə geniş yayılıb, lakin mütəxəssislər hesab edir ki, təkcə texniki nəzarət kifayət etmir.

Uşaq bilməlidir ki:

* onu qınamayacaqsınız;
* hər hansı problem yaşadıqda sizə müraciət edə bilər;
* internetdə gördüyü qəribə hadisələri gizlətməməlidir.

Araşdırmalar göstərir ki, uşaqlar təhlükəli vəziyyətlə qarşılaşdıqları zaman valideynlərinə güvənirlərsə, risklər əhəmiyyətli dərəcədə azalır.

Şəxsi məlumatların dəyərini öyrədin

Uşağa izah edin ki:

* ev ünvanı,
* məktəbin adı,
* telefon nömrəsi,
* gündəlik marşrutlar internetdə paylaşılmamalıdır.

### "Yad adam qaydası"nı internetə də tətbiq edin

Necə ki küçədə tanımadığı insanla getməməyi öyrədirik, eyni qayda internet üçün də keçərlidir.

* oyun dostu real dost deyil;
* kamera qarşısında tanımadığı şəxsə görünmək risklidir;
* heç kimə şəkil göndərməməlidir.

### Birgə internet istifadəsi

**Xüsusilə kiçik yaşlı uşaqlarda:**

* videoları birlikdə izləmək,
* oynadığı oyunları tanımaq,
* izlədiyi kontenti müzakirə etmək çox faydalıdır.

**Uşaq öyrənməlidir:**

* hansı məlumat doğrudur;
* hansı məlumat manipulyasiyadır;
* reklam necə işləyir;
* süni intellektlə hazırlanmış saxta görüntüləri necə tanımaq olar.

### Valideyn nəzarəti vasitələrindən istifadə edin

Bunlar faydalıdır, amma əsas həll yolu deyil.

**Gələcəyin təhlükələri**

Mütəxəssislər hesab edir ki, yaxın illərdə uşaqlar üçün əsas risklər:

* süni intellektlə yaradılmış saxta görüntülər;
* deepfake videolar;
* onlayn fırıldaqçılıq;
* rəqəmsal asılılıq;
* virtual reallıq mühitlərində təhlükələr olacaq.

Uşaqları virtual təhlükələrdən qorumağın yolu interneti tam qadağan etmək deyil. Dünya təcrübəsi göstərir ki, ən uğurlu model üç amilin birləşməsidir:

maarifləndirmə + valideyn nəzarəti + rəqəmsal savadlılıq. Çünki rəqəmsal dövrdə məqsəd uşaqları internetdən uzaqlaşdırmaq deyil, onları internetdə təhlükəsiz hərəkət etməyi öyrətməkdir.

***Ayşən Vəli***

ARAŞDIRMA

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## ELAN

**"Tikinti-Quraşdırma Az NY TŞS" QSC -nin 2025-ci il maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabat.**

**2025-ci il ərzində "Tikinti-Quraşdırma Az NY TŞS" QSC üzrə işlərin görülməsindən və xidmətlərin göstrilməsindən gəlir 2 214 149.18 manat olmuşdur. Malların təqdim edilməsi və işin, xidmət göstərilməsi ilə bağlı xərclər 1 999 628.97 manat, mənfəət 214 520.21 manat, mənfəətdən vergi 25 778.15 manat, xalis mənfəət isə 188 742.06 manat olmuşdur.**

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**